*MƏQALƏ*

**Məmmədhəsən Qəmbərli**
Ortaq başlanğıc və intibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, professor





# Misir şairi Əhməd Şövqinin həyatı və poeziyası

Əhməd Şövqi yeni ərəb şeirinin korifeylərindən biridir. O, 1868-ci ildə Qahirədə ziyalı və imkanlı ailədə doğulmuşdur.

Şairin həyat və yaradıcılıq yolunu iki mərhələyə bölmək olar: İngilislərin 1915-ci ildə onu İspaniyaya sürgün etdiklərinə qədərki dövr, digəri isə sürgündən sonrakı dövr. Şairin iki dövr yaradıcılığı və həyat tərzi məzmun və mahiyyətcə biri digərindən ciddi şəkildə fərqlənir...

Şövqi sürgündən qayıdarkən Qahirə vağzalında böyük hərarətlə qarşılandı. İstər İspaniya həyatı, istərsə də ölkəsində baş verən təbəddülatlar sürgünə qədər saraya yaxın olub, əsasən mədh və vəsf şeirləri yazan şairin yaradıcılıq istiqaməti, demək olar ki, köklü şəkildə dəyişdi. Xalqın oyanışı, milli istiqlaliyyət və demokratiya uğrundakı mübarizələri onun aparıcı mövzularına çevrildi.

Şairin sürgündən sonrakı hər bir şeirində xalqının bu oyanışına hədsiz sevincinin parlaq ifadəsinə rast gəlirik. Bununla da, Şövqinin nəzər-diqqəti əbədi olaraq dəbdəbəli saray həyatından yayındı.

Əhməd Şövqi sarayda keçən həyat və yaradıcılığının birinci dövründə saraydan "qazandığı" "Şairul-umərə" (əmirlər şairi) ləqəbini daşıyırdısa, sürgündən sonra "Əmiruş-şüəra" (şairlər əmiri) ləqəbi ilə ömrünün sonunadək yaşayıb-yaratdı. Bu sonuncu ləqəb şairi şan-şöhrətin əlçatmaz zirvəsinə ucaltdı. Ömrünün sonunadək bu zirvədə qaldı.

Vaxtilə sarayın parıltılı divarları xaricində nələr baş verdiyinə biganə qalan şair

sonra bu hadisələrin qaynar qoynunda özünə ədəbi bir məskən salır. Xalqın, ölkənin həyatında baş verən hər hansı bir mütərəqqi hadisə Şövqinin şair qəlbini riqqətə gətirir, onu sevindirir. Düzdür, sürgündən qayıtdıqdan sonra Şövqidə ara-sıra saray adamlarına şeirlər həsr etmə hallarına rast gəlirik. Lakin bunlar şairin bu dövr yaradıcılığında xarakterik mövzular olmadığı kimi, məzmun baxımından da əvvəlki saray şeirlərindən kəskin surətdə fərqlənir. Əvvəllər belə şeirlər sırf mədh xarakteri daşıyırdısa, indi onlar əsasən, nəsihət, haqq-ədalətə çağırış məzmunu kəsb etmişdi...

1914-cü ildə ingilislər Misir üzərində öz rəsmi protektoratlıqlarını elan edərək ölkənin hakimiyyət sistemini öz məqsədlərinə müvafiq şəkildə dəyişirlər. Sultan Hüseyn Kamil hakimiyyət başına gətirilir və bu zaman Türkiyə səfərində olan Məhəmməd Əli sülaləsinin sonuncu hakimi II Abbasın Misirə qayıtmasına icazə verilmir. İngilislərin bu hərəkəti Abbasın saray şairi olan Əhməd Şövqiyə çox pis təsir edir. Şairdə öz yeni hiylələrinə qarşı ciddi etiraz əlamətləri hiss edən ingilislər onu da 1915-ci ildə İspaniyanın Əndəlus şəhərinə sürgün edirlər. Bununla da, şairin saray həyatına əbədi olaraq son qoyulmuş olur. Bu eyni zamanda onun yaradıcılığında da yeni – sırf mütərəqqi cığıra qədəm qoyduğu dövrün başlanğıcı oldu. Heç də təsadüfi deyil ki, Şövqidən bəhs edən bütün ərəb ədəbiyyatşünasları, habelə dünya ərəbşünasları bu sürgünə şairin zehnini, fikrini, ilham pərisini qandallamış, xalqdan təcrid etmiş saray mühitindən onun xilası kimi baxır və bu hadisəni ərəb ədəbiyyatı üçün xoş bir təsadüf hesab edirlər.

Əhməd Şövqi sürgündən qayıtdıqda (1920) istər Misir üzərində zəif də olsa təsiri qalan Türkiyədə, istərsə də Misirdə siyasi-ictimai hadisələr, konstitusiyalı quruluş uğrunda mübarizələr pik nöqtəsinə çatır...

Artıq Şövqi bütün hadisələrdə xalqla birlikdə addımlayır. Onun istək və arzularının tərənnümçüsünə çevrilir. Xalqın həyatında baş verən hər hansı bir hadisəyə biganə qala bilmir. Bu mürəkkəb hadisələrə bəsirət gözü ilə baxan şair onların siyasi-ictimai mənasını, xalqın öz tələbində haqlı olduğunu dərk edir və bu tələblər uğrunda mubarizəyə şövq edir.

1924-cü ildə vaxtilə ingilis hərbi tribunalı tərəfindən həbsə məhkum edilmiş bir qrup vətənpərvər azad olunur. Vətənpərvərlərin həbsdən azad olunmasını gənclər böyük coşqu ilə qeyd edirlər. Bu sevincə şərik olan Əhməd Şövqi gənclərə müraciət şəklində "Ehtiram" adlı bir qəsidə yazır. Bu qəsidədə şairin haqq, ədalət günəşi qara buludlar arxasında uzun müddət qalmayacağı, gec-tez parlayaraq öz şüalarını hər tərəfə yayacağı fikrini duymaq çətin deyildir. Hər misrası zülmə, ədalətsizliyə, əsarətə qarşı mübarizəyə çağırış kimi səslənən həmin qəsidənin bəzi beytlərinə nəzər salaq:

Öz mübarizələrinə mükafat olaraq
onlar (ingilislərin ölkəni) tərk etmələrini istədilər...
Mübarizənin mükafatı olaraq aza qane olmadılar.
Vallahi Misiri tərk etmə günündən başqa
bayram adlandıracağı bir gün yoxdur[195*]

**195 Məqalədə verilmiş şeirlər Əhməd Şövqinin iki cildlik "Əş-Şövqiyyat" divanından (Beyrut nəşri) götürülmüşdür. Ərəb dilindən tərcümələr məqalə müəllifinə məxsusdur.**

Şeirini bu fikirlə başlayan şair gənclərə başa salır ki, həbsdən azad olmuş və bu vətən mücaidləri kiçik güzəşt və təmənnalar üçün mübarizəyə qalxmamışlar. Onlar vətəni düşməndən azad etməyi axıtdıqları qana, verdikləri qurbana "mükafat" istəmişlər. Odur ki, Şövqi haqlı olaraq belə qənaətə gəlir ki, Misir yalnız o zaman həqiqi mənada bayram edə bilər ki, o, imperialistlərin zülm və əsarətindən tamamilə azad olmuş olsun. Elə buna görə də şair qəsidənin başqa bir yerində gənclərə müraciətlə yazırdı:

Həbsxana öz qandalını parçalayan bir əl tapdı.
Bəs ölkənin qandallarını kim qıracaq?
Bəyannamədən[196*] qazanc o oldu ki,
onun dəmir qandalları dönüb qızıl oldu.
Ey xoşbəxt Nilin gəncləri, vaxt əldə edib
mübarizələrə yenidən başlayın!
Düşmənləri rədd edib əzab-əziyyətdən xilas olun.
Misir üçün tərifəlayiq bir mövqedə dayanın.
Zamanın tələbi və ruhu əsasında
mədəniyyətin möhtəşəm və möhkəm təməlini bina edin.



Bu, Türkiyədə bütün dərsliklərin səhifələrində verilmiş mətni - böyük Atatürkün gənclərə müraciətini xatırladır. Bu müraciətdə Əhməd Şövqinin hadisələrə real münasibəti və onun siyasi, ictimai amalı daha qabarıq şəkildə özünü büruzə verir. Bu dövrdən etibarən Şövqi yaradıcılığında vətənpərvərlik hisləri aşılayan, milli istiqlaliyyət uğrunda mübarizəyə cağırış şeirləri bir silsilə təşkil edir. Sanki tale onu xalqının dərd və ələmlərini, istək və arzularını, keçmiş şan-şöhrətini, bugünkü haqq-ədalət işi uğrundakı mübarizələrini tərənnüm etmək üçün yenidən vətən torpağına atmışdır.

Şövqi vətən övladının gənc və qocasında yeni həyat uğrundakı mübarizə meylini müşahidə etdikdə qəlbi fərəh hissi ilə dolur. Bu sevinc və fərəhin bariz nümunəsini şairin mübarizələrdə partiyaların əlbir, dilbir hərəkətlərindən bəhs edən qəsidələrində görürük.

Müharibədən əvvəl Şövqi Misir xalqının dinə münasibətini, dini hislərini qələmə alırdısa, indi siyası, ictimai mübarizələrini, haqq, ədalət tələblərini, onun ümumi oyanma vəziyyətini tərənnüm edir.

Müharibədən əvvəl saray şairin əsas müraciət etdiyi mövzu idisə, indi onun yeni məhbubu, yeni sitayiş obyekti vardi. Bu da qəflətdən oyanmış Misir xalqı idi.

Əhməd Şövqi vətənini böyük məhəbbətlə sevən bir şair idi. O istər vətənin siyası vəziyyətindən, istər ictimai tərəqqisindən yazsın, istərsə də onun təbiətini vəsf etsin, ona olan məhəbbətini acıq-aşkar büruzə verirdi. Lakin şair bu mövzuların hansı cəhətindən yazırsa-yazsın müasir tələblərə, zamanın səsinə səs verməyə çalışırdı. O çalışırdı ki, hər hansı bir siyası, yaxud ictimai hadisəni xalqın arzuları mövqeyindən qələmə alsın. O çalışırdı ki, qələmə alaraq poeziyanın ecazkar dilinə çevirdiyi hadisələrin təsvir və tərənnümü xalqın mübarizə əzmini coşdursun, ona ilham versin.

O vaxt Misir mətbuatında siyasi vətənpərvərlik hislərini coşduran və tərənnüm

**196 İngilislərin protektoratlıq haqqındakı bəyannaməsi nəzərdə tutulur.**

edən ədəbi əsərlərə geniş yer verilirdi. Bu ədəbi əsərlərdə inqilabi ruh, düşmənə qarşı dərin nifrət və hiddət, getdikcə güclənən istiqlaliyyət tələblərinin inikası əsas yer tuturdu. Bunların içərisində öz aydın səsi, şeirinin bədii dolğunluğu və qüvvətli təsir dairəsi baxımından daha çox nəzəri cəlb edən şairlərdən biri də məhz Əhməd Şövqi idi.

Şövqi yaradıcılığındakı xalq mübarizələrinin təsvirini, vətənpərvərlik hislərini həqiqi vətənpərvərlik hissi ilə döyünən sadiq bir qəlbin məhsulu olmadığını iddia edən tənqidçilər də vardı. Onlar öz fikirlərini onunla izah edirdilər ki, Şövqi misirləşmiş türkdür, buna görə də onda Misirə qarşı həqiqi vətənpərvərlik hisləri ola bilməz. Məhz buna işarə edərək tənqidçi əl-Əqqad yazırdı: "Şövqi Misir vətənpərvərliyini hakim təbəqədən, yaxud hökumətə yaxın olan misirləşmiş türk kimi hiss edirdi. Öz şüuru baxımından o, xalqdan uzaq idi, onlar bir-birindən təsirlənmirdilər. Şövqi xalqın mübarizə meydanında çarpışmırdı. O, saray vəzifəsindən xilas olandan sonra da əvvəlki hislərindən yaxa qutara bilməmişdir".

Əgər əl-Əqqad bu fikri Şövqi yaradıcılığının 1914-cü ilə qədərki mərhələsi üçün demiş olsa idi, ona müəyyən mənada haqq qazandırmaq olardı. Lakin əl-Əqqad bu fikri elə bir vaxtda (1927) söyləmişdir ki, bu vaxt Şövqi şeirinin əsas qida mənbəyi xalq və onun həyatında baş verən hadisələr idi. Buna görə də əl-Əqqadın fikrinin birtərəfli, yalnış olması özünü qabarıq şəkildə göstərir. Çünki yuxarıda deyildiyi kimi, bu dövr vətənə, xalqa məhəbbətin ən bariz nümunələrindən birini məhz Şövqi yaradıcılığında görürük. Əl-Əqqadın əksinə olaraq Şövqi Dayf yazır: "O, (Ə. Şövqi-M.Q.) xalqını tərənnüm edir, misirlilərin hiss və düşüncələrini öz şeir güzgüsündə əks etdirir".

1918-ci ildən başlayaraq Misir xalqının həyatında elə mühüm tarixi hadisələr baş verir ki, bu, sənət adamlarının yaradıcılıq yolunda da yeni mərhələnin başlanğıcı olur. Bu mərhələdə ədəbiyyatın ictimai, siyasi aləmə daha geniş nüfuzunu müşahidə edirik.

Bu bir həqiqətdir ki, bu vaxt Misirin mütərəqqi ictimaiyyətini düşündürən əsas problem ölkəni yadellilərin zülm və əsarətindən xilas etmək idi. Buna görə də bu dövr Misir şeirində bu istiqamətin təbliği əsas yer tuturdu. O cümlədən Ə.Şövqinin yaradıcılığı bu cəhəti ilə təqdirəlayiqdir.

Şövqi yaradıcılığındakı vətənpərvərlik və demokratik ideyaları görməmək və qiymətləndirməmək mümkün deyildir. Çünki dar çərçivədən xilas olan şair xalqla çiyin-çiyinə addımlayaraq məhz bu mövzulardan doğan ictimai hisləri, ictimai amalları tərənnüm edirdi. Bu cəhətdən Ə.Şövqi müasirlərinin yüksələ bilmədiyi zirvəyə yüksəlmişdi. Şairin yaradıcılığındakı bu böyük mütərəqqi təbəddülatı etiraf etməklə bərabər "On iki il şairlər əmiri Şövqi ilə" kitabının müəllifi Əbdül Vahhab yazırdı: "lakin o, (Əhməd Şövqi-M.Q.) müəyyən bir siyasi partiya xəttinin qələbəsi uğrunda mübarizə aparmırdı".

Şövqi Dayf da bu fikri bir qədər izah edərək onu təsdiqləyir. O yazır: "Həqiqətən, onun müasirlərindən elə yazıçılara rast gəlirik ki, gündə bir partiya dəyişərək gah bu, gah da digər partiyanı müdafiə edirlər. Külək kimi gah cənuba, gah da, şimala əsirlər. Bu gün bir partiyanın təbilini çalırlarsa, sabah başqa bir partiyaya meyl edir

və onun təbilini qulaqbatırıcı bir səslə döyəcləyirlər. Şövqi isə belə buqələmun həyatı yaşamağı sevmirdi. Bu vaxt o, şeirindən gələn gəlirlə yaxşı güzəran keçirirdi, odur ki, partiyalardan uzaqlaşaraq müstəqil yaşayırdı.

Göründüyü kimi, istər Əbdül-Vahhab, istərsə də Şövqi Dayf məsələyə partiyalar arasında ixtilaf və sabit mövqenin olmaması prinsipindən yanaşırlar və Şövqini də təcrid edərək heç bir partiyaya meyl və rəğbəti olmadığını göstərirlər. Bu da, şübhəsiz ki, onların şairin mövqeyini düzgün dərk etməmələrindən irəli gəlirdi. Əgər Şövqi xalqı azadlığa, müstəmləkə zəncirindən, müstəbid hakimiyyət rejimindən xilas olmağa çağırırdısa, əgər o, ölkədə konstitusiyalı və parlamentli bir demokratik quruluş arzulayırdısa, bütün bunların əldə edilməsini, xalqla partiyaların əlbir hərəkətində görürdüsə, əgər o, xalqın, vətənin azadlığı naminə partiyalar arasındakı ixtilaflara son qoyulmasını tələb edirdisə, onun mübarizə və münaqişələrdə iştirak etməyib "sakit həyat keçirdiyini" söyləyənlər yanılmırlarmı?



Şövqi xalqı qəflətdən ayıltmaq üçün ona gah şan-şöhrətlə dolu keçmişini xatırladır, gah məhrumiyyətlərlə dolu bugünkü vəziyyətinin acı təsvirini verir, gah da qəti düşmənlə mübarizədə əyilməz polad iradəsini tərənnüm edirdi. Bütün bunlarda şairin məqsədi bir idi; xalqına öz gücünə inam yaratmaqda, öz mənliyini təhqir və həqarətlərdən, müstəmləkə zülmündən xilas etməkdə, elmə, mədəniyyətə qovuşmaqda kömək etsin. Beləliklə, Şövqi Misir xalqı üçün onun keçmiş və indiki vətənpərvərlik hislərini tərənnüm edirdi ki, bu da dövrün tələbi kimi, xalqın mənəvi ehtiyacı kimi böyük əhəmiyyət kəsb edirdi.

Yuxarıda verdiyimiz fikrin əksinə olaraq, əl-Əqqad sonralar belə yazırdı: "Şövqi misirlilərin mübarizə bayramlarını, siyasi hadisələrini qələmə almaqda davam edir. O, bu işdə əli qoynunda oturub qalmır, əksinə elə nəğmələr yazır ki, gənclər onları oxuyub öz həyat yollarını, döyüş və əmin-amanlıq yollarını müəyyənləşdirsinlər". Deməli, Şövqi vətən üçün çarpışan hər hansı bir partiyanın, hər hansı bir qrupun ideyalarının tərənnüm və təbliğatçısı olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, Şövqi dövrün gənclərinin inqilabi nəğmələrə böyük ehtiyacları olduğunu yaxşı dərk etmiş və dönə-dönə bu mövzuya müraciət etmişdir. Şair belə siyasi lirikalarında Misir gənclərinə şan-şöhrətlə dolu dünənindən, zülmə, ədalətsizliyə, qəsbkarlığa qarşı bugünkü mübarizələrindən söz açır, işıqlı gələcək üçün mübarizələri əzmlə davam etdirməyi tövsiyə edir. Şairin belə şeirlərindən biri olan "Gənclərin himni"ndə oxuyurlar:

Bu gün öz vadimizdə ağalıq edirik
və qayıdırıq keçmişimizin gözəlliklərinə.
Vətənə haqq ilə kömək edəcək
və Allahın köməyi ilə onu dirçəldəcəyik.
Öz layiqli işimizlə, öz səyimizlə
onu gözəlləşdirəcək və zinətləndirəcəyik...

Dillərində şairin bu vətənpərvərliklə dolu sətirləri ilə Misir gəncləri döyüşə gedir. Vətənin azadlığı, istiqlaliyyəti uğrunda döyüşə, qəsbkarlığa, zülmə, müstəmləkəçi-

liyə, ədalətsizliyə qarşı döyüşə. Bəli, öz nəğməsinin əsl mənasını aşağıdakı sətirlərdə bildirən şair Misir gənclərindən məhz bunu tələb edirdi:

Həqiqi şan-şöhrət və yüksəliş üçün,
Misiri bir dünyaya çevirməmiz üçün
səy, səy, əbədi səy göstərməmiz lazımdır.

Bu hissi, bu duyğunu, bu çağırışları Şövqinin "Misirin himni", "Vətən", "Nil" kimi nəğmələrində də görürük. Dərin vətənpərvərlik hissi ilə yoğrulmuş bu şeirlərdə şair xalqının yalnız şan-şöhrətli keçmişini, qovğalarla dolu bugününü vəsf, tərənnüm və təsvir etməklə kifayətlənmir, o, eyni zamanda xoşbəxt gələcəyə, bugunkü arzu və xəyalların həqiqətə çevriləcəyinə özü inandığı kimi dövrün gənclərinə də bu inamı aşılayırdı.



Əhməd Şövqinin istər milli-azadlıq hərəkatlarının tərənnümünün, istərsə də siyasi, demokratik ideyalarının ən parlaq ifadəsini onun 1919-cu il üsyanının ildönümünə həsr etdiyi "Qızıl azadlıq" adlı qəsidəsində görürük. Azadlığa, istiqlaliyyətə can atan şair qəlbinin odlu, hərarətli hiss və həyəcanları qəsidənin hər bir misrasında duyulmaqdadır. Dərin emosional təsirə malik bu qəsidəni həyəcansız oxumaq mümkün deyildir. Burada yalnız şairin deyil, böyük bir xalqın sevinc və kədərinin ifadəsini görürük. Bəs nə üçün "Qızıl azadlıq"dan bəhs edən bu qəsidədə həm sevinc, həm də kədər özünə yer tapıb. Şair sevinir, ürəyi dağa dönür ona görə ki, xalqı qəflət yuxusundan ayılmış, yadellilərin niyyətini dərk edərək öz hüquq və azadlığı uğrunda qəti döyüşlərə girmişdir. Onu bu yolda nə ölüm, nə də məhrumiyyətlər qorxudur. Şairə görə o, öz haqq işi uğrunda çarpışır. Çarpışır ki, gəlmələr ona ağalıq etməsin, onun zəhməti ilə yaratdığı sərvətə yiyələnməsin. Çarpışır ki, öz vətənində bütün hüquqlardan məhrum qul halında yaşamasın, dili, milli mədəniyyəti həqarət və təhqirlərdən xilas olsun. Bax, bunlardı şairi sevindirən. O kədərlənir ona görə ki, vətəni hələ tamamilə azad olmamışdır.

Şövqi həmin üsyanda həlak olanları xatırladır, kədərlənir, sevinir. Kədərlənir ona görə ki, vətən övladı heç bir qəsbkarlıq, heç bir tamah uğrunda deyil, öz vətənində öz haqqını tələb edərək həlak olur. Sevinir ona görə ki, xalqı artıq haqqını tələb etmək qüdrətinə malikdir və bu yolda canını qurban verməkdən belə çəkinmir. Şairə görə, bu, sözün əsl mənasında, dirçəlişdir, oyanışdır.

"Qızıl azadlığın yaralarını məlhəm kimi sağaldacaq bir təsəlliyə ehtiyac var", – deyən şair mübarizə zamanı həlak olmuşların ailələrinə, ümumiyyətlə, xalqa sənət dili ilə təsəlli, həm də bir məlhəm təsirli təsəlli verməyin zərurətindən söz açmış olur.

Sonra şair cəhənnəm əzablı sürgünün onu mübarizələrin odlu, hərarətli, ülvi başlanğıcından məhrum etməsinə təəssüfünü bildirir ki, əgər bu üsyanın başlanğıcından şahidi olsaydım, ona öz söz sənətimlə gələcək nəsillər üçün dağılmaz möhtəşəm bir abidə ucaldardım. Elə bir abidə ki, onda Nilin susmuş qəzəbindən, özümün tuğyan edən nifrətimdən söz açardım və hadisələrin rənglərini toplayıb təslim olanların surətini ora həkk edərdim:

Qəhrəmanlıq gününün başlanğıcından şahid olsaydım, gələcək nəsillər üçün onu

elə nəzmə çəkərdim ki, indiyədək yazılmamış olsun.

Fəqət, onun həqiqəti yalanla pərdələnmiş, onun gözəlliyi, ilhamverici istedadlı xəyalın qüdrəti yox olmuşdur.

Sürgün həyatı və onun dəhşətli əzabları olmasaydı – sürgün isə cəhənnəm əzabı bir haldır – hadisələrin rənglərini toplayıb onunla təslim olanın surətini həkk edərdim.

Orada Nilin susmuş qəzəbindən, özümün susmayan nifrətimdən söz açardım.

Sonra şair baş qaldıran güclü vətənpərvərlik hissinin ölkəni necə təlatümə gətirdiyini, qarı düşmənə qarşı əlbir hərəkətini iftixarla yad edir. Şövqi düşmən nə qədər güclü olursa-olsun, xalqın dönməz iradəsi önündə gec-tez məğlub olacağı qənaətinə gəlir.



Şair azadlıq uğrunda gedən mübarizələrdə xalqın axan qanını obrazlı şəkildə vətən torpağına çilənmiş gözəllik rəngi adlandırır və bu mübarizə gününü zamanın parlaq ulduzuna bənzədərək yazırdı: “Mübarizə günü, azadlıq sənin dərini qana boyayıb öz gözəllik rənginə bürüdü. Zamanın parlaq ulduzuna çevrildin, tutqun çöhrənin qırışları gülümsədi”.

Məlum olduğu kimi, Roma imperatoru Neron tarixə zülm və ədalətsizlik timsalı kimi daxil olmuşdur. Şövqi ingilisləri hərbi qüvvədə Roma qeysərlərindən daha güclü, ədalətsizlikdə və zülmdə onlardan daha dəhşətli olduqlarını göstərir. Buna baxmayaraq, xalqının belə qeyri-bərabər döyüşə girməsi haqqın, ədalətin zülmə qarşı, işığın qaranlığa qarşı, xeyrin şərə qarşı mübarizəsi kimi şairi vəcdə gətirir, sevindirir. Bəs bu döyüşdə Misir xalqının əldə etdiyi nə oldu? Şövqiyə görə, bu mübarizə nəticəsində xalqın əldə etdiyi ən qiymətli nemət konstitusiya oldu:

Konstitusiya, o bizə həyatdır,
biz onda əmin-amanlıq
və işıqlı gələcəyə aparan uğurlar görürük.
Onu biz səxavət hədiyyəsi kimi deyil,
qiymətli qanımız bahasına əldə etdik.
Onda göz yaşından sütunlu bir eyvan qurduq,
hər bir yeniyetmənin qanından qanad yaratdıq.

Şövqi haqlı olaraq əldə edilmiş bu ictimai neməti düşmən səxavəti nəticəsində deyil, axan qan, tökülən göz yaşlarının bəhrəsi olduğunu vurğulayır və bunda xalqın əmin-amanlığı və gələcək səadəti üçün ilkin izlər görürdü...

Böyük şərqşünas alim, akademik İ.N.Kraçkovski çox doğru olaraq yazırdı: “Ə. Şövqi və H.İbrahim XX əsrdə otuz ildən artıq (yəni ömürlərinin sonunadək-M.Q) Misir poeziyasına başçılıq etmişlər.” Bir onu əlavə edib deyə bilərik ki, bu iki poeziya nəhəngi təkcə Misirin deyil, dövrün ümumərəb şeirinin korifeyləri olmuşlar...

Əhməd Şövqinin yaradıcılığına Azərbaycanda da diqqət var. Akademik İsa Həbibbəyli Əhməd Şövqinin “Nil çayı” şeirini Azərbaycan dilinə tərcümə edib çap etdirmişdir:

Axar sahilində gözəlliklər var,
Ağaclar sulara kölgələr salır.
Misir torpağına verər bəhər-bar
Xeyir-bərəkətdi, bardı Nil çayı.

Yaşı insanların yaşına çatır,
Adında dünyanın sirləri yatır.
Xurma ağacları xoş ətir saçır,
Qədim bir tarixdi, vardı Nil çayı.

Quşların səsində nazlanıb yaşar,
Sərxoş küləklərtək çağlayıb coşar.
Ləpəsi elinə nəğmələr qoşar.
Misir torpağına yardı Nil çayı[197].

Əhməd Şövqi ərəb şeirinin bütün ənənəvi janrları ilə yanaşı, nisbətən yeni olan dram janrında da qələmini sınamış və "Leyli və Məcnun" mənzum dramını yazmışdır. Professor İmamverdi Həmidov Ə.Şövqinin bu əsərilə Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması arasında müqayisəli tədqiqat aparmışdır.

Əhməd Şövqinin geniş mövzu dairəsində Türkiyədə baş verən hadisələr də çox önəmli yer tutur ki, biz bu barədə "Ərəb ədəbi-bədii qaynaqlarında türk" (1998) adlı monoqrafiyamızda ətraflı bəhs etmişik.

Görkəmli şair Əhməd Şövqi 1932-ci ildə Qahirədə vəfat etmişdir.

197 Bax: İ.Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan", 2007, səh. 679